MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

6 | dekabr 2018-ci il | Cümə axşamı

№ 48 (3412)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI



Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.

SABİTLİK VƏ İNKİŞAF NÜMUNƏSİ- AZƏRBAYCAN

1993-cü ildən başlayaraq, ulu öndərimiz Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət ölkədə baş alıb gedən siyasi və iqtisadi böhranı aradan qaldırmış, Azərbaycanın demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatı yolu ilə irəliləməsinə geniş yol açmışdır.

Ötən illərdə respublikamızda həyata keçirilən sosial-iqtisadi islahatların, infrastruktur layihələrinin səmərəli nəticələr verməsi, hər bir fərdin maraq və mənafelərini özündə əks etdirməsi dövlət başçısı cənab İlham Əliyevin yüksək bilik və intellektə, təcrübə və istedada, geniş dünyagörüşə, çevik idarəçilik məharətinə, yüksək əzmə, qətiyyətə malik lider olduğunu bir daha nümayiş etdirmişdir.

Azərbaycan xalqının qısa müddətdə qazandığı yüksək nəticələr dövlət idarəçiliyinin uzun illər ərzində formalaşmış mükəmməl mexanizmlər əsasında həyata keçirilməsi ilə bağlıdır. Bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi inkişaf mərhələlərini qısa zamanda sürətlə adlayan Azərbaycan bazar iqtisadiyyatı, demokratiya və vətəndaş cəmiyyəti quruculuğu yolunda böyük tərəqqiyə nail olmuşdur.

Düzgün büdcə siyasətinin müəyyənləşdirilməsi istənilən dövlətin inkişaf templərinin dayanıqlılığını, eləcə də həyata keçirilən islahatların yüksək səmərəliliyini şərtləndirən iqtisadi siyasətin əsas faktorlarından biridir. Maliyyə - büdcə siyasəti hər bir konkret tarixi dövrdə istənilən cəmiyyətin idarə edilməsi, iqtisadi-sosial və siyasi vəzifələrinin həyata keçirilməsi məqsədilə dövlətin mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş pul vəsaiti fondlarının yaradılması və məqsədəuyğun istifadəsi ilə əlaqədar olaraq həyata keçirdiyi tədbirlər sistemindən ibarətdir. Azərbaycan dövləti son illər ərzində uğurla həyata keçirdiyi genişmiqyaslı iqtisadi və sosial layihələri reallaşdırmaq məqsədilə lazımi miqdarda maliyyə vəsaitini səfərbərliyə alır və düşünülmüş, dəqiq büdcə siyasəti nəticəsində həmin vəsaitlərdən olduqca səmərəli bir şəkildə istifadə edir.

Ötən həftə Milli Məclis 2019-cu ilin dövlət büdcəsini qəbul etdi. Azərbaycanın 2019-cu il üzrə dövlət büdcəsinin gəlirlərinin ilkin proqnoza nisbətən 251 milyon manat artırılaraq 23 milyard 168 milyon manata, xərclərinin isə ilkin proqnoza nisbətən 410 milyon manat artırılaraq 25 milyard 190 milyon manata çatdırılması nəzərdə tutulur.

Beləliklə, parlament 2019-cu il üzrə dövlət büdcəsinin gəlirlərini 23 milyard 168 milyon manat, xərclərini 25 milyard 190 milyon manat səviyyəsində təsdiqlədi. 2019-cu ilin dövlət büdcəsinin gəlirləri üzrə proqnozun 7 milyard 316 milyon manatı Vergilər Nazirliyinin xətti ilə daxilolmaların, 11milyard 364,3 milyon manatı ARDNF-dən transferlərin, 3 milyard 702,6 milyon manatı Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 785,6 milyon manatı isə digər sahələrin payına düşür.

Qeyd edək ki, 2019-cu ilin dövlət büdcəsinin neft gəlirlərinin hesablanmasında orta ixrac qiyməti 60 ABŞ dolları nəzərdə tutulub.

Azərbaycandakı iqtisadi sistem qlobal maliyyə böhranından əziyyət çəkən bir sıra dövlətlər üçün nümunə ola bilər. Ölkənin strateji maliyyə ehtiyatları onun xarici borcundan qat-qat çoxdur. İri dövlət investisiyaları hesabına yeni iş yerləri açılır, bu da öz növbəsində işsizliyi əhəmiyyətli dərəcədə azaldır.

Azərbaycanda aparılan geniş abadlıq-quruculuq işləri, nəqliyyat infrastrukturunun yenilənməsi, sahibkarlara və iş adamlarına dövlətin güzəştli kreditlər verməsi sənaye və kənd təsərrüfatının inkişafına səbəb olur. Həyata keçirilən bütün bu tədbirlər hökumətin böhrana qarşı səmərəli tədbirlərindən xəbər verir. Dövlət investisiyalarının artırılması və qeyri-neft sektorunun inkişafına yönəldilməsi onu deməyə əsas verir ki, hökumət neftdən gələn gəlirlərdən olduqca səmərəli istifadə edir.

Avropa ölkələrində isə dövlətin xarici borcunun ödənilməsinin ağırlığı vətəndaşların çiyninə düşür. Müəssisələr bağlanır, minlərlə işsizlər ordusu yaranır. Azərbaycanda əmək haqlarının ildən-ilə artdığı halda, Avropada vergilər artırılır, sosial ödənişlər azaldılır.

Sosial-iqtisadi sahədə böyük problemlər yaşayan Ermənistanda vəziyyətin getdikcə daha da pisləşməsi müşahidə olunur. Bu ölkədə hakimiyyət dəyişikliyinə rəğmən, qeyd olunan istiqamətlər üzrə müsbətə doğru dəyişən nəsə yoxdur. Əksinə, işğalçı ölkənin çöküşünün daha sürətli xarakter alacağı proqnozlaşdırılır. Bunu Ermənistanın gələn il dövlət büdcəsindən də görmək olar. Gələn il üçün nəzərdə tutulan layihədə büdcənin gəlirləri 1,5 trilyon dram, xərcləri isə 1,6 trilyon dram və ya 3,3 milyard ABŞ dolları göstərilir. Bu isə o deməkdir ki, Ermənistanın dövlət büdcəsi Azərbaycanınkından təxminən 4,5 dəfə azdır.

Neftlə zəngin ölkə olmaq inkişafın zəruri olacağına dəlalət etmir. Azərbaycandan da çox neft ehtiyatına malik olan ölkələr var, lakin nəinki inkişaf müşahidə edilmir, əksinə, bir çox hallarda həmin dövlətlərdə yüksək inflyasiya, qeyri-sabit ictimai-siyasi vəziyyət, vətəndaş müharibələri baş verir. Belə hallar isə xaosa, fəlakətə sürükləyir.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Tahir Salahova telefonla zəng edib.

Dövlətimizin başçısı müasir Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi Tahir Salahovun fəaliyyətini yüksək qiymətləndirib, onu 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunması münasibətilə təbrik edib.

Tahir Salahov telefon zənginə və təbrikə görə Prezident İlham Əliyevə təşəkkür edib və onu Azərbaycanın yüksək dövlət mükafatına - 1-ci dərəcəli "Əmək" ordeninə layiq gördüyünə görə dərin minnətdarlığını bildirib.

Dövlətimizin başçısı Tahir Salahova möhkəm cansağlığı və fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva dekabrın 4-də Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi - "Bakutel-2018" ilə tanış olublar.

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 5-də Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyində olub.

Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı ilə əlaqədar başsağlığı verib, matəm kitabına ürək sözlərini yazıb.

Dövlətimizin başçısı dekabrın 5-də Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Tahir Salahova 1-ci dərəcəli "Əmək" ordenini təqdim edib.

Dövlətimizin başçısı noyabrın 29-da Laos Xalq Demokratik Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Prezident zati-aliləri cənab Bounyanq Voraçitə təbrik məktubu göndərib.

❖❖❖❖❖

Ölkəmizin rəhbəri noyabrın 29-da Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı münasibətilə Əbu-Dabi Əmirliyinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana təbrik məktubu göndərib.

❖❖❖❖❖

Noyabrın 29-da Azərbaycan Prezidenti İlham Əliyev milli bayram - Müstəqillik Günü münasibətilə Ərəb Əmirliklərinin Vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid Al Məktuma və Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyana təbrik məktubları göndərib.

❖❖❖❖❖

Noyabrın 30-da ölkəmizin rəhbəri Gürcüstanın Prezidenti seçilməsi münasibətilə zati-aliləri xanım Salome Zurabişviliyə təbrik məktubu göndərib.

❖❖❖❖❖

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 1-də Amerika Birləşmiş Ştatlarının 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı ilə əlaqədar Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Donald Trampa başsağlığı teleqramı göndərib.

❖❖❖❖❖

Dövlətimizin başçısı dekabrın 1-də Amerika Birləşmiş Ştatlarının 43-cü Prezidenti zati-aliləri cənab Corc Uoker Buşa atası Amerika Birləşmiş Ştatlarının 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı ilə əlaqədar başsağlığı teleqramı göndərib.

❖❖❖❖❖

Ölkəmizin rəhbəri dekabrın 3-də Rusiyanın rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskovu qəbul edib.

❖❖❖❖❖

Dekabrın 3-də Azərbaycan Prezidenti İlham Əliyev CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

❖❖❖❖❖

Dövlətimizin başçısı dekabrın 3-də Tailand Krallığının milli bayramı münasibətilə Kral Əlahəzrət Maha Vaciralonqkorn Bodindradebayavaranqkuna təbrik məktubu göndərib.

❖❖❖❖❖

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 4-də Amerika Birləşmiş Ştatlarının müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuperin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

❖❖❖❖❖

Ölkəmizin rəhbəri dekabrın 4-də Türkiyə Respublikasının nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

❖❖❖❖❖

Dekabrın 4-də Azərbaycan Prezidenti İlham Əliyev İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhrominin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

ƏDALƏTİN TƏMƏLİ- İNSAN HÜQUQLARI

BMT Baş Məclisi 1948-ci il dekabrın 10-da "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə" qəbul etdi. Məqsəd insan hüquqlarını və bütün ölkələrin əməl etməli olduqları normaları müəyyən etmək idi. Sənədi qısa müddətdə hətta ən qəddar diktaturalar belə imzaladılar.

"İnsan Hüquqları haqqında Ümumi Bəyannamə" müxtəlif sosial-iqtisadi quruluşlu dövlətlərin insan hüquqlarının müdafiəsi sahəsində mühüm beynəlxalq sənəddir. O, dünya dövlətlərinin müvafiq qanunvericiliyinə də öz müsbət təsirini göstərir...

DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Azərbaycan Respublikasının və Rusiya Federasiyasının daxili işlər nazirləri arasında əldə olunmuş qarşılıqlı razılaşmaya əsasən, cari il noyabrın 19-dan 25-dək hər iki ölkənin sərhədyanı rayonlarının ərazisində «Sərhəd» şərti adı altında birgə kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər keçirilib...

Bax səh.2.

AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ, DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİ VƏ BAŞ PROKURORLUĞUN MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

Xəbər verildiyi kimi, 2018-ci il iyulun 10-da Gəncə şəhərində radikal dini yönümlü bir qrup şəxs tərəfindən ictimai asayişin pozulmasına yönələn zorakılıq aktları, hakimiyyət nümayəndələrinə silahlı müqavimət göstərilməsi, o cümlədən müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməsi, iki polis zabitinin qəsdən öldürülməsi ilə müşayiət olunan kütləvi iğtişaşlar törədilməsinə görə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində cinayət işi başlanılaraq istintaq aparılır.

Ötən müddətdə Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun təcrübəli əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu tərəfindən həyata keçirilmiş tədbirlərlə Maarif Hacıyevin və Xəyal Qafarovun, onlar ilə eyni cinayətkar niyyətləri və radikal dini baxışları bölüşən Şahlar Rzayev, Rəşad Böyükkişiyev, Kamal Quliyev və digər şəxslərlə cinayət əlaqəsinə girib sosial şəbəkələrdə, şəxsi görüş və söhbətlərdə zorakılıqlara və kütləvi iğtişaşlara çağırış xarakterli məlumatlar yaymaları, bu məqsədlə insanları iyulun 10-da saat 20:00 radələrində Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının qarşısındakı meydana toplamaq barədə çağırışlar yaymalarına əsaslı şübhələr müəyyən edilmişdir.

İstintaq araşdırmaları ilə həmçinin adları çəkilən şəxslərin Gəncə şəhərində ictimai asayişi kobud şəkildə pozmaları, zorakılıqlar törətməsi, o cümlədən hakimiyyət nümayəndələrinə həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə silahlı müqavimət göstərməsi ilə müşayiət olunan kütləvi iğtişaşlar təşkil etmələrinə, həmin hadisələrdə fəal iştirakına, Xəyal Qafarovun, Samir İbrahimovun və Əli Rzayevin həm də qanunsuz olaraq əl qumbaraları, avtomat silahlara aid patronlar, külli miqdarda narkotik vasitə əldə edib saxlamalarına, gəzdirmələrinə və daşımalarına əsaslı şübhələr müəyyən edilmişdir.

İş üzrə barələrində həbs qətimkan tədbiri seçilmiş Cinayət Məcəlləsinin 220.1 (Kütləvi iğtişaş) və 315.2-ci (Hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) maddələri ilə təqsirləndirilən Maarif Hacıyev, Şahlar Rzayev, Ruslan Həsənov, Tural Bayramov, Nizami Əkbərov, Kamal Məhərrəmov, Seymur Əliyev, Toğrul Verdiyev, Orxan Yağnəliyev, Araz Həsənov və Vaqif Əşrəfov barəsində ayrıca icraata ayrılmış cinayət işinin istintaqı noyabrın 26-da, Cinayət Məcəlləsinin 220.1, 228.1 (Qanunsuz olaraq silah, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə), 234.4.3-cü (Bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən qanunsuz olaraq külli miqdarda narkotik vasitələrin əldə olunması) maddələri ilə təqsirləndirilən Xəyal Qafarov, 220.1 və 315.2-ci maddələri ilə təqsirləndirilən Kamal Quliyev, Raul Süleymanov, Ülvi Həsənov, Vüqar Allahverdiyev, 220.1, 228.1, 234.4.3 və 315.2-ci maddələri ilə təqsirləndirilən Samir İbrahimov, 220.1, 234.1 və 315.2-ci maddələri ilə təqsirləndirilən Əli Rzayev, 220.1-ci maddəsi ilə təqsirləndirilən Rauf Qurbanzadə, Mireşqin Seyidov, Kamal Məmmədtağıyev və Qadir Hüseynov barəsində ayrıca icraata ayrılmış cinayət işinin istintaqı isə noyabrın 30-da tamamlanaraq baxılması üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

3 dekabr 2018-ci il

ƏDALƏTİN TƏMƏLİ- İNSAN HÜQUQLARI

BMT Baş Məclisi 1948-ci il dekabrın 10-da "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə" qəbul etdi. Məqsəd insan hüquqlarını və bütün ölkələrin əməl etməli olduqları normaları müəyyən etmək idi. Sənədi qısa müddətdə hətta ən qəddar diktaturalar belə imzaladılar.

"İnsan Hüquqları haqqında Ümumi Bəyannamə" müxtəlif sosial-iqtisadi quruluşlu dövlətlərin insan hüquqlarının müdafiəsi sahəsində mühüm beynəlxalq sənəddir. O, dünya dövlətlərinin müvafiq qanunvericiliyinə də öz müsbət təsirini göstərir.

Təxminən 20 il davam edən müzakirələrdən sonra Mülki və Siyasi hüquqlar haqqında Beynəlxalq Pakt və İqtisadi, Sosial və Mədəni hüquqlar haqqında Beynəlxalq Pakt qəbul edildi.

Dünya ictimaiyyəti tərəfindən tanınan yeni növ insan hüquqlarının siyahısı ilbəil yenilənir. Bu gün dünya artıq insanın ekoloyi hüququnu tanımaqdadır, gələcək nəsillərin ləyaqətlə və layiqincə yaşamaq hüququ müzakirə edilir. Müasir dünyada insan hüquqları daha geniş bir anlayışdır.

İnsan hüquqlarının qorunmasının əhəmiyyəti o qədər böyükdür ki, BMT Baş Məclisi 1950-ci ildə bütün dövlətlərə və maraqlı təşkilatlara **dekabrın 10-nu İnsan Hüquqları Günü kimi qeyd etməyi tövsiyə etmişdir.**

Yeni əsrin ilk illərindən Azərbaycan dövləti tərəfindən insan hüquqlarının qorunması, hüquq və azadlıqlarının təmin olunması sahəsində ardıcıl tədbirlər həyata keçirildi. Avropa Şurasına üzv qəbul olunduqdan sonra Azərbaycan "İnsan hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına" qoşuldu. Bu zaman o, öz üzərinə milli qanunvericiliyin Avropa standartlarına uyğun təkmilləşdirilməsi öhdəliyini götürdü. Bu istiqamətdə atılan addımlardan ən mühümü Ombudsman təsisatının yaradılması idi.

Ölkəmizdə dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir. Hakimiyyətin bütün qollarına şamil edilən bu öhdəlik insan və vətəndaş hüquq və azadlıqlarına hörmət etmək və onu qorumaq vəzifələrini ehtiva edir. Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq saziş-lərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ-hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, beynəlxalq mərkəzlərdə tədqiqat və təhsil problemləri üzrə mütəxəssislərin hazırlanması və digər məsələlər də ölkəmizdə insan hüquqları kimi bəşəri dəyərə münasibətin göstəricisidir.

İnsan hüquq və azadlıqlarına hörmət, onun qorunması hər bir polis əməkdaşının vəzifəsi, xidməti və vətəndaşlıq borcudur. Oxucu məktubları və müraciətləri ilə işləyən əməkdaş kimi həmkarlarımızın bu sahədə də çox ciddi mövqelərə gəlib çatdığını görmək, xalqımız tərəfindən bunun təqdir edilməsi xüsusilə xoşdur.

Aytəkin Nəcəfova,
polis polkovnik-leytenantı

MÜZAKİRƏNİN MÖVZUSU GƏNCLİK İDİ...

"Gələcəyimizi və gəncliyimizi qorumaq üçün bu bəlaya qarşı hər birimiz səylərimizi birləşdirməli və maarifləmməliyik".

Bu fikirlər 148 nömrəli məktəbdə "Narkomaniyaya yox deyirik" mövzusunda keçirilən tədbirdə səsləndi. Məktəbin direktoru Esmira Babayeva şagirdlərin vətənpərvər ruhda böyüməsi, onların elmə-biliyə marağının artırılması ilə bərabər bu cür tədbirlərin keçirilməsinə görə Daxili İşlər Nazirliyinin rəhbərliyinə təşəkkür etdi. Bildirdi ki, uşaqlar, yeniyetmələr arasında narkomaniyanın qurbanlarının sayını azaltmaq məqsədi ilə ailə, məktəb və polis vəhdətinə ehtiyac var. Bax, elə bu "Niyələrə" cavab tapmaq üçün sizinlə görüşə gəlmişik",- deyən RPİ-nin rəisi, polis polkovniki Eldar İlyasov narkotiklərlə hüquq-mühafizə orqanlarının, xüsusən də polisin və digər dövlət orqanlarının qətiyyətli mübarizəsi barədə görülən işlərdən danışdı.

E.İlyasov narkotikə aludəçiliyin, əsasən, gənclik dövründə başlanıldığını, buna görə də elə məktəb dövründən profilaktik işlərin aparılmasının vacibliyinə diqqət çəkdi. Bildirdi ki, narkotik qəbul edənlərin, xüsusi ilə yeniyetmənin kriminal meyilləri daha təhlükəlidir. Xarakterin zəifliyi, mənəvi özünənəzarətin hələ tam formalaşmaması onların cinayət əməllərinə sövq edilməsini asanlaşdırır.

O, dedi ki, belə maarifləndirici tədbirlərin keçirilməsi dövlətimizin gələcəyi və dayaqları olan gəncliyimizi qorumağa yönəlib.

RPİ-nin bölmə rəisi, polis mayoru Əli Babayev, Rayon Gənclər və İdman İdarəsinin rəisi Rakif Əliyev, Narkotiklərlə Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunun üzvü Raqif Allahverdiyev yeniyetmə və gənclərin narkomanlıq və digər zərərli vərdişlərdən qorunması istiqamətində aparılan işlər barədə söhbət açaraq gənc nəslin savadlı, vətənpərvər ruhda böyüməsi, sağlam inkişaf etməsi, zərərli vərdişlərdən uzaq olması üçün görülməli işlərdən danışdılar və müntəzəm olaraq maarifləndirici tədbirlərin keçirlməsinin vacibliyini vurğuladılar.

Daha sonra məktəbin 11-ci sinif şagirdi, karate üzrə respublika və iki dəfə dünya çempionu Ləman Seyidəliyeva idman uğurlarından danışdı, həmyaşıdlarını ölkəmizin idman hərakatında fəal şəkildə iştrak etməyə çağırdı.

Sonra o, qonaqları şagirdlərə təqdim etdi.

Sabunçu Rayon İcra Hakimiyyəti başçısının I müavini Güloğlan Məmmədov narkomaniyanın fəsadlarından, maarifləndirmənin vacibliyindən, aparılan mübarizədən danışarkən dedi ki, bu bəla cəmiyyətin mənəvi, əxlaqi dəyərlərini sarsıdır, sosial-iqtisadi inkişafa mənfi təsir gostərir, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradır və cinayətkarlığın artmasına səbəb olur.

Həkim-narkoloq Pərvin Abbasova narkomaniyanın birbaşa genefonda zərərini və narkomaniyanın müalicəsinin çox çətin olduğunu qeyd etdi.

"Hamı narkomaniyanın ziyanlı olduğunu bilir, təəssüf ki, onun toruna düşənlərin sayı günbəgün, özü də çox sürətlə artır. Niyə?

Sonda şagirdləri maraqlandıran suallar cavablandırıldı.

Hafiz Təmirov,
polis mayoru

DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Azərbaycan Respublikasının və Rusiya Federasiyasının daxili işlər nazirləri arasında əldə olunmuş qarşılıqlı razılaşmaya əsasən, cari il noyabrın 19-dan 25-dək hər iki ölkənin sərhədyanı rayonlarının ərazisində «Sərhəd» şərti adı altında birgə kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər keçirilib.

Əməliyyatın əsas məqsədi transmilli mütəşəkkil cinayətkar dəstələrin ifşa edilərək zərərsizləşdirilməsi, silah-sursatın, partlayıcı maddələrin və qurğuların, narkotik vasitələrin, eləcə də digər hüquqazidd əməllərin həyata keçirilməsinə yönələn maliyyə və maddi vəsaitlərin daxilolma kanallarının müəyyənləşdirilib qarşısının alınması sahəsində birgə kompleks təşkilati-praktiki tədbirlərin həyata keçirilməsi, həmçinin sərhədyanı əməkdaşlıq məsələləri ilə bağlı qəbul edilmiş qərarların yerinə yetirilməsi olub.

Rusiya Federasiyası Dağıstan Respublikasının sərhədyanı bölgələrini və ölkəmizin Qusar, Quba, Xaçmaz, Zaqatala, Şəki, Balakən, Qəbələ, Qax və Oğuz rayonlarını əhatə edən tədbirlər nəticəsində müxtəlif cinayətlər törətdiklərinə görə axtarışda olan 18 şəxs, o cümlədən Rusiya Federasiyası tərəfindən axtarılan 12 nəfər tutulub, itkin düşmüş hesab olunan 4 nəfər tapılıb, mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə axtarılan 61 nəfər saxlanılıb.

Qanunsuz saxlanılan 9 avtomat silahı, 1 qumbaraatan, 5 tapança, 80 tüfəng, 31 ədəd sandıqça, 40 qumbara, 30 ədəd qumbara alışdırıcısı, 20 ədəd digər hərbi ləvazimat və sursat, 5642 ədəd müxtəlif çaplı patron aşkarlanaraq müvafiq qaydada götürülüb.

Əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqədar 5 fakt aşkar olunub. Bundan başqa, tədbirlər zamanı ölkəmizin sərhədyanı rayonlarının ərazisində törədilən 5 müxtəlif cinayətin açılması da təmin edilib.

Ümumən, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına, həmçinin hər iki dövlətin milli maraqlarına, qanunçuluq prinsiplərinə ciddi riayət olunmaqla gerçəkləşdirilən belə birgə kompleks əməliyyat-axtarış tədbirlərinin gələcəkdə də keçirilməsi planlaşdırılır.

29 noyabr 2018-ci il

MAARİFLƏNDİRMƏ TƏDBİRLƏRİ DAVAM ETDİRİLİR

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi tərəfindən yetkinlik yaşına çatmayanların baxımsızlığı, hüquq pozuntularının profilaktikası sahəsində maarifləndirmə tədibləri davam etdirilir.

Növbəti belə tədbir respublikanın Tovuz və Şəmkir rayonlarında tam orta məktəblərin yuxarı sinif şagirdləri ilə keçirilib.

Toplantılarda Rayon Polis şöbələrinin, İcra Hakimiyyətinin nümayəndələri, eləcə də pedaqoji heyət, narkoloq və psixoloqlar iştirak ediblər.

Hər iki tədbirdə Daxili İşlər Nazirliyi Baş İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşı, polis polkovnik-leytenantı Əkbər Əkbərov görüşün məqsədini açıqlayıb, "Yetkinlik yaşına çatmayanların baxımsızlığı və hüquq pozuntularının profilaktikasında polisin rolu" və "İnternetdən təhlükəsiz istifadə qaydaları" mövzularında çıxış edərək törədilən hüquqpozmaların fəsadları barədə danışıb.

Tovuz və Şəmkir RPŞ-lərin təmsilçiləri "Dini radikalizm nədir, onun zərərli təsirləri", yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın aparılması məqsədilə "Narkotiklər haqqında nə bilirik?", İcra Hakimiyyəti başçılarının humanitar məsələlər üzrə müavinləri, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul əməkdaşları, VVAQ şöbələrinin müdirləri "Erkən nikahın fəsadları və qarşısının alınmasında gənclərin fəallığının artırılması" mövzularında çıxışlar edərək narkomaniyanın yayılmasına, dini radikalizm və erkən nikah hallarına qarşı hamılıqla mübarizə aparılmasının vacibliyini qeyd edib, bu işdə əmək kollektivlərinin, müəllimlərin, gənclərin, habelə valideynlərin üzərinə çox böyük vəzifələrin və məsuliyyətin düşdüyünü bildiriblər.

Tədbirlərin sonunda məktəbliləri maraqlandıran suallar cavablandırılıb, mövzularla bağlı videoçarx nümayiş etdirilib.

Natiq Cavadov,
polis kapitanı

GƏLƏCƏYİN POLİSLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLDİ

DİN-in Polis Akademiyasında kursantlara peşə vərdişlərinin aşılanması, onlarda dövlətə, dövlətçiliyə, anda, xidməti vəzifə borcuna sədaqət hisslərinin formalaşdırılması, nizam-intizama və qanunçuluğa ciddi əməl edilməsi ilə bağlı tədbir keçirilib.

DİN Veteranlar Şurasının sədri Fərhad Süleymanov çıxışında Azərbaycanda həyata keçirilən gənclər siyasətinin, gənclərə göstərilən diqqət və qayğının əsasında ölkəyə layiqli vətəndaş və sağlam nəslin yetişdirilməsinin dayandığını bildirib.

Qeyd olunub ki, müstəqilliyin üçüncü onilliyinə qədəm qoymuş Azərbaycana məhz milli şüura malik, vətənpərvər gənclər lazımdır və ümummilli liderin əsasını qoyduğu müstəqil Azərbaycanın gənclər siyasəti məhz bu amala xidmət edir.

Ulu öndərin qayğısı ilə inkişaf yoluna çıxan bu təhsil ocağı da ölkə və DİN rəhbərliyinin xüsusi diqqəti və tələbkarlığı sayəsində tərəqqi və təkmilləşmə dövrünü yaşayır. Akademiyada aparılan geniş abadlıq və quruculuq işləri, həmçinin yeni tədris korpusunun, əlavə dərs və məşğələ otaqlarının tikilməsi, bu istiqamətdə bütün imkanların səfərbər edilməsi sevindirici haldır. Məhz yaradılan şəraitin nəticəsidir ki, akademiyanın təmsilçiləri respublika və beynəlxalq səviyyəli bilik və idman yarışlarında uğurlara imza atırlar.

Daha sonra Polis Akademiyası rəisinin böyük köməkçisi, polis polkovnik-leytenantı Osman Vəliyev diqqətə çatdırıb ki, gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin daha da inkişaf etməsinə təkan verir, onların cəmiyyətdə özlərini təsdiqləmələri üçün şərait yaradır. Məhz bu diqqət və qayğının nəticəsi olaraq cari il Akademiyaya qəbul olunanlardan 100 nəfərin 600, 24 nəfərin isə 650-dən yüksək bal topladığını diqqətə çatdıran O.Vəliyev onların irəliləyən illərdə də təhsildə və təlimdə daha yüksək nəticələr göstərəcəklərinə inamını ifadə edib.

Z.Hüseynov,
polis serjantı

BU DA BİR İLKDİR

DİN rəhbərliyinin göstərişi ilə paytaxtda və yerlərdə məktəblərdə, müxtəlif əmək kollektivlərində keçirilən görüşlərdə əsas məqsəd gələcəyimizi təhdid edən, cəmiyyətdə "ailəvi qırğın silahı" kimi qorxu yaradan narkomaniya ilə mübarizədir. Mütəmadi olaraq keçirilən maarifləndirmə tədbirləri DİN Mətbuat Xidməti vasitəsilə xəbər saytlarında yerləşdirilir və qəzetlərdə dərc olunur. Bu tədbirlərə "Mübariz keşikdə" qəzetinin səhifələrində də geniş yer verilir.

Qonaq qismində iştirak etdiyimiz belə tədbirlər barədə qeydlərimizi etsək də şagirdlərin, yeniyetmələrin təəssüratlarını yazıb bizə təqdim etmələri həm də arzumuz idi.

Etdiyi müşahidəni ürək eyləyib qələmə almağa cürət edənləri çox soraqlasaq da təəssüflər olsun ki, onlardan səs-soraq çıxmırdı.

Bu günlərdə Xətai RPİ-yə dəvət edilən 58 nömrəli məktəbin şagirdlərindən birinin keçirilən tədbirlə bağlı yazdıqları diqqətimi çəkdi. Məlum oldu ki, məktəbin əlaçısı, XI b sinif şagirdi Fidan Qarayeva polis övladıdır və o, kiçik yaşlarından, belə deyək, polis ömrünə şahidlik edib.

Düzü, buna sevindik. Çünki polis haqqında polis övladının yazması bizim üçün çox maraqlı idi.

Fidanın təəssüratları ilə sizləri də tanış edirik. Bu da bir ilk, bir başlanğıcdır.

H.Təmirov,
polis mayoru

BİLDİKLƏRİM, BİLMƏDİKLƏRİM VƏ QEYDLƏRİM...

RPİ-nin təşkilatçılığı ilə məktəbimizdə "Zərərli vərdişlərdən uzaq olmalı" mövzusunda tədbir keçirildi. Tədbirdə idarənin rəisi, polis polkovniki Muradəli Babayev, şəxsi heyətlə iş üzrə rəis köməkçisi, polis polkovnik-leytenantı İdris Məhərrəmov və RPİ Veteranlar Şurasının sədri Nazim Xıdırov iştirak edirdi. Polislər bizə zərərli vərdişlərin, narkomaniyanın insan həyatını necə məhv etməsindən danışdılar. Görüşdə valideynlər də iştirak edirdilər. Bizlərin gələcəyini, sabahını düşünən polislə öz övladını qorxudan valideynləri qınadım da. Mən polis övladıyam, polis peşəsinin necə çətin və məsuliyyətli olduğunu bilirəm…

Düşünürəm: Nə üçün gənclər kitabxanalara, inkişaf mərkəzlərinə meyil etmək yerinə çay evlərinə üz tuturlar? Əslində, cavab məlumdur. İradəsi zəif olanlar gələcəyini düşünmür və boş günlərində daha çox əylənməyə zaman sərf edirlər. Bu vaxtın onun ömründən getdiyini diqqətə almadan hər saatını boşa xərcləyirlər. Ayılanda isə artıq gec olur…

Hazırda ölkəmizdə çoxlu gənclər mərkəzləri, dil kursları fəaliyyət göstərir. Boş vaxtımızda çay evlərində, oyun mərkəzlərində vaxt keçirmək əvəzinə maariflənəcəyimiz məkanlara üz tutmalıyıq.

Çox sevdiyim bir aforizm var. "Uğurlu olmaq istəyirsənsə, səni aşağı çəkən ağır yüklərdən qurtul". Bir hava şarı təsəvvür edin, içində çoxlu lazımsız yüklər var və o uça bilmir. Artıq yüklərdən azad olduqca isə yüngülləşir və yüksəlir. İnsanlar da belədir. Zərərli vərdişlərdən, onu aşağı çəkən "dost"lardan qurtularsa, asanlıqla yüksəlməyi bacararlar.

Mövzu ətrafında bizlərin də fikrini öyrənmək istədi polislər. Bir neçə uşaq inamla əlini qaldırdı. Mən dəvət olundum. İllərdir eyni məktəbdə oxuduğum uşaqların qarşısında mövzu ətrafında danışmalı idim. Həyəcanlı olsam da fikirlərimi çatdıra bildim, yəni danışmağı bacardım…

Çıxışımı qonaqlar bəyəndilər. İdarə rəisi məktəb direktorumuza dedi ki, 20 nəfərlik şagird heyətini təşkil etsin və onlar yaxın günlərdə polisin qonağı olsunlar. Düzü, buna çox sevindik.

Noyabrın 15-də Xətai Rayon Polis İdarəsində olduq. Bəlkə də bu, mənim və şagird yoldaşlarımın iştirak etdiyi ən maraqlı ekskursiya idi. Binanın bütün mərtəbələrini gəzdik. Hər birinin özünə məxsus interyeri, hər mərtəbədə qonaqlar üçün gözləmə yeri var idi. Orada baş verən maraqlı məqamları sizinlə bölüşmək istərdim.

Məhbusların saxlandığı yerə gəldik. Muradəli müəllim bizə: "Onları görmək istərdinizmi",- dedi. Təbii ki, hamı üçün çox maraqlı idi. Onlar isə bizi görmək istəmirdilər. Görünür, etdikləri yanlışdan xəcalət çəkirdilər. Biz onların saxlandığı yeri gördük. Daha sonra dəftərxananı gəzdik. Başqa bir otaqda xanım polislər səylə çalışırdılar. Bizdən iki nəfər onlarla yerimizi dəyişdik. Qürurverici və məsuliyyətli hiss idi. Bir anlıq özümü bütün xəyalları gerçəkləşmiş kimi hiss etdim. Və son olaraq, rəisin otağına getdik. Sanki orada qonaq deyildik. Uşaqlardan kimin rəis olmaq arzusunda olduğunu soruşan M.Babayev kreslonu göstərib: "Kim rəis olmaq istəyir, otursun",- dedi. Oğlanlardan biri keçib kresloda əyləşdi və ciddi görkəm aldı. Rəis zarafatından da qalmadı. Həmin şagirdə: "Üzündəki ciddi görünüş kreslonun məsuliyyətindəndir",- dedi…

Hamımız güldük.

Sonra idarənin akt zalına toplaşdıq. Polis xanımlardan biri nə üçün polis peşəsini seçməsindən danışdı. Bizə kitab da hədiyyə etdilər…

Bu görüş xatirimizdə xoş anlarla qaldı. Uşaqlardan bəziləri artıq gələcəkdə polis olmaq qərarını vermişdilər.

Fidan Qarayeva

ELMİ-PRAKTİK KONFRANSDA

Fövqəladə Hallar Nazirliyinin Akademiyasında ali məktəblərin kursant və tələbələrinin iştirakı ilə "Gənclərin fövqəladə hallarda davranışı haqqında məlumatlılıq səviyyəsinin artırılması" mövzusunda elmi-praktik konfrans keçirilmişdir.

Konfransda DİN-in Polis Akademiyasının V kurs kursantları Laçın Ədilov "Fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılmasında daxili işlər orqanlarının rolu", Süphan Tağıyev isə "Fövqəladə hallarda qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin təşkilində daxili işlər orqanlarının rolu" mövzusunda məruzələrlə çıxış etmişlər.

Tədbirin sonunda hər iki kursantı Fövqəladə Hallar Nazirliyinin Akademiyasının "İştirakçı sertifikatı" ilə təltif olunmuşdur.

T.Hafiz

BİR DAHA ÜMİDLƏRİ DOĞRULTDU

Noyabrın 16-dan 18-dək Rumıniyanın paytaxtı Buxarestdə yeniyetmə və gənclər arasında güləş üzrə dünya çempionatı keçirilib.

Milimizin tərkibində təmsil olunan DİN İdman Cəmiyyətinin yetirməsi Əli Rəhimzadənin ilk görüşü ağır mübarizə şəraitində keçib. Kanada təmsilçisiylə qarşılaşmada hesabda 1:3 geridə olan Rəhimzadə son saniyələrdə əldə etdiyi 2 xal sayəsində növbəti mərhələyə yüksəlib. Daha sonra Moldova nümayəndəsini də üstələyərək, yarımfinalda güləşmək hüququ əldə edib.

Macar rəqibini məğlub edən Ə.Rəhimzadə finala vəsiqə qazanıb. Yekun nəticəyə görə gənc pəhləvanımız gümüş medala sahib olub.

Onu bu yarışa İdman Cəmiyyətinin baş inspektoru, polis polkovnik-leytenantı İlham Mustafayev hazırlayıb.

H. Zeyni

HAMI ÜÇÜN KİTAB

Bu sərlövhəni yazıya təsadüfən seçmədik. Verilən bilgilər, dəyərli tövsiyələr hamıya lazım ola bilər. Söhbət üç təcrübəli həkimin "İlk tibbi yardım" kitabından gedir.

Bəzən təsadüflər bizi sınağa çəkir. Əhvalımızın, ovqatımızın yaxşı vaxtında, dincəldiyimiz, istirahət etdiyimiz zaman ekstremal vəziyyətlə qarşılaşmalı oluruq.

Bunlar kitabın ön sözündə də verilib, elə özümüz də, paqondaşlarımız da belə hallarla qarşılaşmışıq, söhbətlərdə çox eşitmişik.



Müxtəlif səbəblərdən kiminsə halı pisləşir, avtoqəzada zərərçəkənlər, gözlənilməz qəzalara tuş gələnlər olur. Belə hallarda həkim gələnə qədər onların ən azından ağrısını yüngülləşdirməyi, düzgün ilkin tibbi yardım göstərməyi bacarmalıyıq.

Bu sahədə həmkarlarımızın müəyyən təcrübəsi var. Hadisə yerinə çıxan, bayır xidməti aparan polis əməkdaşları dəfələrlə qəzaya uğrayan avtomobillərdən çıxardıqları yaralılara, odlu və soyuq silah yarası almış insanlara ilk yardım göstəriblər.

Elə kitabın müəllifləri də vaxtilə hüquq-mühafizə, güc strukturlarında xidmətdə olarkən çox insanı ölümün cəngindən alıb, yenidən həyata qaytarıblar. Onlar torpaqlarımızın bütövlüyü uğrunda gedən müharibədə yaralanmış çox döyüşçülərimizin yaralarına məlhəm qoyublar.

İstefada olan tibb xidməti polkovniki, əməkdar həkim Ramiz Əkbərov vaxtilə rəhbərlik etdiyi DİN-in A.Heydərov adına Respublika Hospitalı ilə bu gün də işgüzar münasibətlərdədir, gənclərdən, ehtiyacı olanlardan köməyini əsirgəmir. İstefada olan tibb xidməti polkovnik-leytenantı Nazim Quliyev, istefada olan tibb xidməti kapitanı Bəhruz Məmmədov da qayğıkeş, ən başlıcası, xəstələrin ümidini doğrultmuş həkimlərdir. Hər üçü hazırda "İstanbul NS" klinikasının aparıcı mütəxəssisləridir.

Kitabda tənəffüsün dayanması, nəbzin itməsi, boğulma, qanaxma, qıcolma, yanıqlar, günvurma, donma, müxtəlif zədələr, zəhərlənmələr, sancılar, infeksion və qəfləti xəstəliklər zamanı göstərilən ilk tibbi yardım və onun mahiyyəti, zərərçəkmişin daşınma qaydaları barədə ətraflı məlumat verilib.

Ayrı-ayrı vəziyyətləri daha aydın təsvir etmək üçün rəngli illustrasiyalardan istifadə olunub.

Üç təcrübəli cəfakeşin əməyinin nəticəsidir ki, hazırladıqları kitab da həm əhatəli, həm də oxunaqlıdır. Faydasını, xeyrini isə oxuyub mənimsəyəndən sonra biləcəksiniz.

Z.Hüseynov

ALINDI... CİNAYƏT YOX, ƏMƏLİYYAT

Maşında oturub havanın qaralmasını gözləməsi xeyli vaxt apardı. Hava soyuq idi.Yanacaq da az olduğundan mühərriki və deməli, qızdırıcını işə sala bilmirdi. Bir az da maşında otursaydı soyuqdan az qala donacaqdı. Evlərdən gələn işiqlar bir-bir sönməyə başladı. Gözaltı elədiyi Hacıqədirli kənd sakini Mərdan Qasımovun evindən də gələn səs-küy yavaş-yavaş kəsildi. Artıq hərəkətə keçmək vaxtıydı.

Nəhayət, mühərriki işə saldı, avtomobilin işıqlarını da yandırmadan evə tərəf sürdü. Maşından düşüb hasara yaxınlaşdı. Bir anda sıçrayıb içəri keçdi. Tövlənin qapısını açdı. Əl fanarının işığında 2 baş quzu, 2 baş xötəyi sakitcə çıxarıb, həyət qapısından keçirib, öz malıymış kimi, avtomobilə yerləşdirib aradan çıxdı.

Mərdan kişi itkidən səhər xəbər tutdu. Adəti üzrə, tezdən oyanıb mal-heyvana baş çəkmək üçün tövləyə yollandı. Qapısının açıq olduğunu görüb özünü danladı: "Qapını bağlamaq yenə yadımdan çıxıb". İçəri girəndə isə nə baş verdiyini anladı.

Mərdan kişi bir az götür-qoydan sonra ona ancaq polisin kömək edə biləcəyini anlayıb Ağsu RPŞ-yə yollandı.

Fakt barədə RPŞ-nin rəisi, polis polkovnik-leytenantı Fəxrəddin Abbasova da məlumat verildi. Onun göstərişinə əsasən, yaradılmış əməliyyat-istintaq qrupuna rəhbərlik əməliyyat işləri üzrə rəis müavini, polis mayoru İlqar Haqverdiyevə həvalə olundu. Qrup vaxt itirmədən hadisə yerinə yollandı. Düzgün və vaxtında aparılmış əməliyyat-istintaq tədbirləri tezliklə öz bəhrəsini verdi.

Bütün izlər qonşu Kürdəmir rayonuna aparırdı. Bu barədə rəisə məruzə olundu. Lazımi tədbirlər görüldü və qrup təcili hadisəni törətməkdə şübhəli bilinən Kürdəmir rayon sakini Zaur Dəmirovun ünvanına yollandı...

Darvazanı döyənlərin polislər olduğunu görəndə Zaurun sanki damarında qanı dondu. Oğurladığı heyvanları elə indicə yaxın qohumunun tövləsinə salıb qayıtmışdı.

Cinayətin "isti izlər"lə açılmasında əməliyyat aparatının əməkdaşları ilə yanaşı digər xidmət sahələrində çalışan həmkarlarımızın, xüsusilə xidmət üzrə rəis müavini, polis mayoru Vüsal Əliyevin də işini qeyd etmək yerinə düşərdi.

Geridə qoyduğumuz müddət ərzində cinayətkarlıqla mübarizədə və ictimai asayişin qorunmasından söhbət açan polis polkovnik-leytenantı Fəxrəddin Abbasov da əldə olunan müsbət nəticələrin ayrı-ayrı xidmət sahələrinin qarşılıqlı işinin düzgün təşkil olunması sayəsində mümkün olduğunu bildirdi.

Dedi ki, ötən müddət ərzində ümumi cinayətlərin açılması 87,7 faiz olmuşdur. Adam öldürməyə cəhd, qəsdən sağlamlıqa ağır zərər vurma, dələduzluq, xuliqanlıq, iqtisadi fəaliyyət sahəsində, narkotik vasitələrlə bağlı, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, eləcə də ölümlə nəticələnən YNH-nin açılması 100 faiz təmin olunmuşdur.

"Xaş-Xaş 2018" şərti adı altında tədbirlər planına əsasən, 2134 ədəd, ümumi çəkisi 1000 kiloqramdan çox yabanı halda bitmiş çətənə kolu aşkar edilərək yandırılmışdır.

DYPB-nin işini xüsusilə qeyd edən şöbə rəisi F.Abbasov dedi ki, bölmə əməkdaşları tərəfindən ümumilikdə 5794 inzibati protokol tərtib olunmuşdur ki, bu da keçən 2017-ci il ərzindəkindən 3471 ədəd çoxdur. Bu müddət ərzində 71 sərxoş, 114 sürücülük hüququ olmadan avtonəqliyyatı idarə edən şəxs tərəfimizdən müəyyənləşdirilmişdir.

Çingiz Şıxverdiyev,
polis polkovnik-leytenantı

MARAQ DÜNYASI

❖Bəşəriyyət beş ildən sonra miniatür reaktorlar vasitəsilə "süni Günəş" enerjisindən istifadə edə bilər. Söhbət ucuz və ekoloji cəhətdən təmiz enerji mənbəyi olacaq istilik-nüvə reaktorlarından gedir.

BBC xəbər verir ki, hazırda istifadə etdiyimiz karbohidrogen yanacaqların səbəb olduğu qlobal istiləşmə şəraitində dayanıqlı alternativ enerji mənbələrinə ehtiyac duyulur. Alimlərin fikrincə, bu mənbələrin olmaması gələcəkdə su və ərzaq çatışmazlığı, aclıq və müharibələrə səbəb ola bilər. Bu problemin həllinin yeganə yolu isə istilik-nüvə sintezləridir. Energetika üzrə ekspertlərin şübhə ilə yanaşdıqları bu enerji mənbəyi, bəzi startapların bildirdiyinə görə, beş ildən sonra reallığa çevrilə bilər.

Çin alimləri də istilik-nüvə reaktorları üzərində iş aparırlar. "Çinin süni günəşi" adlanan reaktorun plazmasında isə temperaturu 100 milyon dərəcəyə qaldırmaq mümkün olub. Çinlilər də reaktorun qabığının hazırlanması üzərində iş aparırlar.

❖Antarktidanın şərq hissəsi qalın buzlarla örtülüdür. Bəzi alimlər iddia edirlər ki, nəhəng buz qatının altında "donmuş tektonik blok" yerləşir ki, bu kütlə geoloji baxımdan digər qitələrlə həmcins olması ilə fərqlənir. Lakin kosmik peyk vasitəsilə əldə edilən məlumata görə, Şərqi Antarktidanın həqiqətən qitələrin qalıqları üçün bir "qəbiristanlıq" olduğu qənaəti yaranıb. Alimlər planetin ən cənub qitəsinin 3D formatında tektonik xəritəsini tərtib ediblər və məlum olub ki, buz qatlarının altında qədim superqitənin qalıqları var.

Britaniya Antarktida Tədqiqatları İnstitutunun aparıcı geofiziki Fausto Ferraçiolinin fikrincə, "bu əyalətlərin Yer kürəsi tarixinin hansı mərhələsində və necə birləşdiyi, bunun nəticəsində Şərqi Antarktidanın formalaşması barədə çoxlu müzakirələr aparılır". Onun sözlərinə görə, bu parçalar 1 milyard il əvvəl - "Rodinia" adlı superqitənin yarandığı və ya onun cəmi 500 milyon il əvvəl "Qondvana" superqitəsi ilə birləşdiyi dövrdə bir araya gələ bilərlər. "Hər halda, Antarktida buzlaqlarının altında tapılan nəhəng kütlə 160 milyon il əvvəl "Qondvana"nın parçalanmasının nəticəsidir", - deyə alim vurğulayıb.

❖Yaponiya hökuməti gələn il pilotsuz avtomobillərin sınaqlarının keçirilməsinə icazə verməyi planlaşdırır. Məqsəd 2020-ci ildə həmin avtomobillərin istifadəsinə başlamaqdır.

Uçan avtomobillər elektrik enerjisi ilə çalışan və əsasən pilotsuz uçan aparatlar texnologiyasına aid qurğulardır. Dünyanın bir çox şirkətləri avtomobil tıxaclarını aradan qaldırmaq və daha yaxşı logistika xidməti göstərmək məqsədilə bu cür texnikanın hazırlanması üzərində çalışır.

Yaponiya Sənaye və Nəqliyyat Nazirliyi ölkədə həmin texnologiyanın tətbiqi məqsədilə yol xəritəsi üçün ilkin planı dərc edib.

Uçan avtomobillərin sınaqlarının keçirilməsi üçün Tokio, Osaka şəhərlərinin, habelə Mie və Fukuşima prefekturalarının namizədliyi irəli sürülüb.

Ruhiyyə Əliyeva

NƏ QIZINI DÖY, NƏ DİZİNİ, AĞLINI İŞLƏT...

Evi yığışdırıb bazara getdi. Bəzi şeylərə pulu çatmadı. Qayıdıb yemək hazırladı. İşini bitirib paltar dolabını açdı. Paltosunun cibindən pul götürmək istəyəndə, gördü cibi boşdu. Bütün paltarları yerə töküb bir-bir axtardı, amma bircə manat belə tapmadı...

Şəhla Məmmədova Şəki ŞRPŞ-yə ərizə ilə müraciət edərək yaşadığı mənzildən 6300 manatın oğurlandığını bildirdi. Dərhal əməliyyat-istintaq qrupu yaradıldı və axtarış tədbirlərinə başlanıldı.

Qapı zorla açılmamış, qıfıl, ya da pəncərə cəftəsi sındırılmamışdı. Qadın bu yaxın günlərdə uzağa da getməmişdi. Evinə gələn-gedən məlum idi. Peşəkar polis əməkdaşları məhz bu istiqamətdə işlərini davam etdirdilər...

Gecəyarı idi yatmağa hazırlaşırdı. Elə təzəcə yerinə girmişdi ki, qapı döyüldü. Yaxınlaşıb soruşdu:

- Kimdir?

-Mənəm...

Qapını açdı. Qohumu ilə birgə yeniyetmə qızı da gəlmişdi.

- Bu vaxt hardan gəlirsiz, - soruşdu.

-Qonşuluqda toya gəlmişdik. Gec oldu, fikirləşdik ki, evə gedənəcən səhər açılar. Sizdə qalıb, səhər evə gedərik deyə bura gəldik...

Qohumlarına yatmaq üçün yer saldı.

Səhər açılar-açılmaz, qalxıb qonaqlarına süfrə hazırlamağa başladı. Qonaqlar isə geyinib getməyə hazır idilər.

-Çörək yeməmiş hara gedirsiz? – soruşdu.

-Sağ ol, tələsirik, - deyib çıxdılar...

"Qızını döyməyən, dizini döyər". Amma, görünür, bu sözləri deyən müdrik şiddətə meyilli olub. Bu söz bəlkə də məcazi mənada işlənib. Ya elə, ya da belə, həqiqət budur ki, övladına gözəl tərbiyə verib, diqqətdə saxlamayan valideyn sonda dizinə də döyər, başına da.

Şəhla xanımın qohumu kimi...

Ruhiyyə Əliyeva,
polis leytenantı

2019-cu ilin I yarısı üçün "Mübariz keşikdə"yə-öz qəzetinizə abunə olmağa tələsin!

Daxili işlər orqanları əməkdaşlarının nəzərinə!

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 1, 2, 3 və 4 saylı uşaq bağçalarına daxili işlər orqanlarında xidmət edən əməkdaşların uşaqlarının qəbulu həyata keçirilir.

Ətraflı məlumat üçün DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinə müraciət edə bilərsiniz.

Əlaqə nömrələri: (012) 562 38 40 və 408 81 25

DAXİLİ İŞLƏR NAZİRLİYİ
SOSİAL ŞƏBƏKƏLƏRDƏ

Facebook
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://www.facebook.com/mia.gov.az/

İnstagram
Adı- azerbaycan.din
Keçid linki- https://www.instagram.com/azerbaycan.din/

Twitter
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://twitter.com/MIAAzerbaijan

Youtube
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://www.youtube.com/channel/UCnOFln-vwFvkLMCMGyg2j-w/featured

"XƏZRİ" sizi gözləyir!

Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 16 sentyabr 2018-ci il tarixdən 31 may 2019-cu il tarixədək mövsüm üzrə qiymətləri
(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)

Qeyd: 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 20.00 manat (iki nəfərlik nömrəni tək tutduqda 30.00 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 60.00 manat, özü və 5-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 55.00 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 80 manat və onlarla birgə 5-12 yaşadək uşağa əlavə yer verildikdə 105.00 manat təşkil edir.

4. Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

5. 3-5 yaşda uşaqların qalması ödənişsizdir.

6. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, trenajorlardan, akvaparkdan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metrostansiyasından 171 nömrəli avtobus gəlir.
Telefon: (+99412) 554-47-60;
Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51
Faks: (+99412) 453-63-33;
Poçt indeksi: AZ1090
E-poçt: info@khazribaku.az
Veb-sayt: www.khazri.mia.gov.az

16 sentyabr 2018-ci il - 31 may 2019-cu il (2 nəfərlik standart otağın qiyməti : iki nəfər qaldıqda 160 manat, bir nəfər tək qaldıqda 120 manat)		
	2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün	2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda
Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə)	20,00 manat	30,00 manat
Onun ailə üzvü (50% güzəştlə)	40,00 manat	60,00 manat
Polis əməkdaşı ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə)	25,00 manat	
Kənar şəxslər (güzəştsiz qiymət)	80,00 manat	120,00 manat
Valideyni ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət)	50,00 manat	

Türkiyənin daxili işlər naziri Süleyman Soylu təhlükəsizlik kameralarının görüntülərinin yayılmasının qarşısının alınması barədə əmr imzalayıb. Nazirin əmrində deyilir: "Sübut və şəxsi məlumat sayılan təhlükəsizlik kamerasının görüntülərini sosial şəbəkələrdə, o cümlədən KİV-lərdə yayımlanmasını qadağan edirəm. Bunu edənlər və yaxud kamera görüntülərini sızdıranlar bundan sonra cinayət məsuliyətinə cəlb ediləcəklər".

Sənəd ölkənin bütün hüquq-mühafizə orqanlarına və o cümlədən bələdiyyə rəhbərlərinə göndərilib.

*****

İtaliyanın daxili işlər naziri Matteo Salvini Romadakı mafioz klanın villasını uçurmaq üçün özü şəxsən ekskavatorun sükanı arxasına keçib. Başına kaska taxaraq tikiliyə ilk zərbəni endirən nazir söz verib ki, bütün qanunsuz tikililəri yerlə-yeksan edəcək və cinayətkarları rəhm etmədən təqib edəcək.

*****

Venesuela Prezidenti Nikolas Maduro son 15 gün ərzində Kolumbiyadan gələn narkotik satıcılarının 4 təyyarəsinin vurulduğunu bildirib. Onun sözlərinə görə, aviasiyanın bu hərəkəti milli hökumətin Venesuela ərazisində qanunsuz qüvvələrlə mübarizədə gördüyü işlərdən xəbər verir.

*****

Dekabrın 25-də, milad bayramı günündə İngiltərənin Liverpul şəhərində "Bıçaq mələyi" ("Knife Angel") adlı abidənin açılışı olacaq. Hündürlüyü 8,22 metr olan heykəl şəhər polisinin müxtəlif əməliyyatlar zamanı müsadirə etdiyi 100 min bıçaq tiyəsindən hazırlanıb.

Heykəl iki il əvvəl Şorpşirdəki Britaniya Metal Konstruksiyalar Mərkəzində heykəltaraş Alfi Bredli tərəfindən hazırlanmağa başlanmışdır. Şəhər mərkəzində ucaldılmış abidə küçələrdə bıçaqlı hücumlarla müşayiət olunmuş cinayətlərin qurbanlarının xatirəsinə ithafdır. Bu abidənin məhz Liverpulun mərkəzində ucaldılması ilə bağlı aparılmış genişmiqyaslı kampaniyanın təşəbbüskarı isə Liverpul Kral Xəstəxanasının təxirəsalınmaz yardım bölməsində tibb bacısı işləyən Rob Ceksondur.

*****



Avropa İttifaqı öz sərhədlərində daha bir yenilik edəcək. Tezliklə İttifaq ölkələrinə gələn qonaqlar xüsusi kompyuter proqramına daxil edilmiş suallara cavab verəcəklər. Polis formasında olan cizgi personajı vizanı, pasport və ödəmə qabiliyyəti üzrə məlumatları yoxlayacaq. Bununla yanaşı, bu "animasiya polisi" baqajın tərkibi və səyahətin məqsədi ilə də maraqlanacaq. Xüsusi proqram təminatı (yalan detektoru) vasitəsilə müsahib şəxsin söylədiklərinin doğru olub-olmadığı müəyyən olunacaq.

*****

Dubay polisi və texniki cəhətdən dünyada ən mükəmməl polis patrul avtomobillərinin yeni nəslini təqdim edib. Yolsuzluq şəraiti üçün nəzərdə tutulan bu avtomobillər süni intellekt texnologiyaları ilə, o cümlədən üzdən tanıma vasitələri ilə təchiz olunub. Sensor ekranlar və müasir rabitə vasitələri quraşdırılmış avtomobillər axtarışda olan nəqliyyat vasitələrinin nömrə nişanlarını tanımağa və komanda məntəqəsi ilə operativ əlaqə saxlamağa imkan verir.

C.Natiq

Noyabrın 28-dən dekabrın 4-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 744 cinayət qeydə alınmış, onların 114-ü «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 102 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 203 nəfər, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 5 nəfər, borclu şəxs qismində axtarışda olan 108 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 23 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 14 nəfər ölmüş, 29 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 45 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 189 nəfər saxlanılmışdır.

Polis Akademiyasının rəisi Nazim Əliyev və şəxsi heyəti Şuşa RPŞ-nin rəisi İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Nəsimi RPİ-nin şəxsi heyətlə iş üzrə rəis köməkçisi Vüsal Rüstəmova əmisi
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nizami RPİ-nin rəisi Ədalət Abbasov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Abşeron RPİ-nin rəisi Şəhriyar Şəmşirli və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mingəçevir ŞPŞ-nin rəisi Cavid Muradov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Pirallahı RPŞ-nin rəisi Cümşüd İsmayılov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yevlax RPŞ-nin rəisi Vaqif Müslümov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ RPŞ-nin rəisi Nadir Məmmədov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Quba RPŞ-nin rəisi Süleyman Neymətov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gədəbəy RPŞ-nin rəisi Məhərrəm Quliyev və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şamaxı RPŞ-nin rəisi Şahin Mirzəyev və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəmkir RPŞ-nin rəisi Cəmil Əmirov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağstafa RPŞ-nin rəisi Elsevər Aslanov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Azər Cahangirov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cəlilabad RPŞ-nin rəisi Mübariz Quliyev və şəxsi heyəti iş yoldaşları Əvəz Məhərrəmova əzizi
SƏRHAD kişinin
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zərdab RPŞ-nin rəisi Teymur Hacıyev və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hacıqabul RPŞ-nin rəisi Məmməd Hüseynov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qax RPŞ-nin rəisi Elnur Mehdiyev və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tərtər RPŞ-nin rəisi Elçin Qasımov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi RPŞ-nin rəisi Məhəmməd İbrahimov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Beyləqan RPŞ-nin rəisi Rəşid Piriyev və şəxsi heyəti polis veteranı Loğman İsmayılova anası
SÜCAYƏT xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xocavənd RPŞ-nin rəisi Yadigar Hüseynov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qubadlı RPŞ-nin rəisi Bəhruz Cabbarov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şabran RPŞ-nin rəisi Əli Mərdanov və şəxsi heyəti İlqar Rüstəmliyə qardaşı
YAŞAR RÜSTƏMOVUN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ALLAH RƏHMƏT ELƏSİN!

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.279
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00